BAKU 2017 4th Islamic Solidarity Games

# IV İslam Həmrəyliyi Oyunları







# İslamiadanın bayram əhvali-ruhiyyəsi Qaradağda

Azərbaycan paytaxtında keçiriləcək IV İslam Həmrəyliyi Oyunları ilə bağlı davam edən, aprelin 5-də Xəzər dənizindən start götürən "Bakı-2017" ümumxalq səyahət turu dünən Qaradağ rayonuna yetişdi. Şimaldan Abşeron, şimal-şərqdən Yasamal, şərqdən Binəqədi, cənub-şərqdən Səbail rayonları, qərbdən Şirvan şəhəri, şimal-qərbdən Şamaxı, cənub-şərqdən Salyan və cənub-qərbdən Hacıqabul rayonları ilə həmsərhəd olan Qaradağ inzibati ərazi vahidi kimi Puta-Şubanı mədəninin kəşfi ilə əlaqədar yaradılmışdır.

Rayonun əsası 1923-cü il mayın 7-də qoyulmuşdur. Hazırda Qaradağ rayonunun inzibati ərazi vahidliyinə 11 qəsəbə daxildir. Qaradağ rayonunun mərkəzi Lökbatan şəhərtipli qəsəbəsidir.

Ölkəmizin qısa zaman kəsiyində qazandığı möhtəşəm nailiyyətlərdə Azərbaycanın ən iri sənaye mərkəzlərindən olan, ölkənin neft-qaz və qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan Qaradağ rayonu müstəsna əhəmiyyətə malikdir. Ulu öndər Heydər Əliyevin yeni neft strategiyasının reallaşmasında Qaradağ rayonunun müstəsna rolu var. Hələ ötən əsrin 80-ci illərində məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində Qaradağ rayonunda regionda analoqu olmayan və bu gün ulu öndərin adını daşıyan Dərin Dəniz Özülləri Zavodunun istismara verilməsi, digər neft sənayesi müəssisələrinin inşası bu gün milli neft strategiyasını uğurla reallaşdırmağa imkan verir.




Rayonun sosial-iqtisadi inkişafında ümummilli liderin layiqli siyasi varisi Prezident İlham Əliyevin müstəsna xidmətləri var. Cənab İlham Əliyev hələ 1990-cı illərin ortalarında Qaradağ rayonunda millət vəkili kimi fəaliyyəti dövründə çox böyük işlər görmüşdür. Azərbaycanda həmin illər ilk dəfə olaraq sosial-inkişaf proqramı da cənab İlham Əliyevin təşəbbüsü və iştirakı ilə məhz Qaradağ rayonunda qəbul edilmiş, "Qaradağın sosial-iqtisadi inkişafına yardım fondu" çərçivəsində rayonda bir sıra layihələr həyata keçirilmiş, məktəb və uşaq bağçaları əsaslı təmir olunmuş, yollar çəkilmiş, qəsəbələr abadlaşdırılmışdır. Bu işlər hazırda da uğurla davam edir.

2014-cü ilin sentyabrın 20-də Qaradağ rayonu ərazisində Azərbaycan Prezidentinin təşəbbüsü, iştirakı və dəstəyi ilə XXI əsrin möhtəşəm layihəsinin - "Cənub qaz dəhlizi"nin təməli qoyulmuşdur.

Dövlət başçısı Qaradağ rayonuna səfərləri zamanı "Mətanət-A" şirkətinin Yeni Ağdağ Gips Zavodunun açılış mərasimində, Gəmiqayırma zavodunda "Üfüq", "Zəfər" və "Turan" sərnişin gəmilərinin istismara verilməsi tədbirində və Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Şahdəniz-2" layihəsinin hasilat və dikborular platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak etmişdir.

Hazırda rayonda iki böyük sement zavodu, Səngəçal terminalı, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Yeni Gəmiqayırma Zavodu, Heydər Əliyev adına Dərin Dəniz Özülləri Zavodu, Qaz Emalı Zavodu, Metal konstruksiyalar zavodu və onlarla sənaye və emal müəssisəsi fəaliyyət göstərir. Qaradağ təkcə neft hasilatı və sement zavodları ilə deyil, ölkə üçün məhsul istehsal edən digər mühüm sənaye müəssisələri ilə də tanınır.

Rayon ərazisində 7 xəstəxana, 6 poliklinika, 2 müstəqil poliklinika, 1 stomatoloji poliklinika, 1 özəl klinika, 1 uşaq sanatoriyası, 1 doğum evi, 2 təcili və təxirəsalınmaz tibbi yardım stansiyası, eyni zamanda respublika güzəm xəstəxanası və Ələt dəmiryol xəstəxanası fəaliyyət göstərir. Ümumilikdə isə Qaradağda 25 orta məktəb, 4 lisey və peşə məktəbi, 3 musiqi məktəbi , 1 xüsusi internat məktəbi var. Uşaq bağçaları və körpələr evinin sayı isə 22-dir.

Rayonda mədəniyyət və istirahət mərkəzlərinin sayının artırılmasına xüsusi diqqət ayrılır. Hazırda burada 8 mədəniyyət evi, 1 muzey, 10 kitabxana, 10 mədəniyyət və istirahət parkı, 1 dövlət qoruğu fəaliyyət göstərir. Eyni zamanda Qaradağ ərazisində 15 mədəniyyət və tarixi abidə var ki, onun da 4-ü respublika, 1-i isə dünya əhəmiyyətlidir. Rayonda məscidlərin sayı isə 10-dur.

Daş dövründə məskunlaşan qədim insanların qayaüstü rəsmlərini əks etdirən dünya əhəmiyyətli Qobustan Milli Tarixi Bədii Qoruğu 2 iyul 2007-ci ildən UNESCO tərəfindən Ümumdünya İrsi elan olunmuş və hazırda xarici turistlərin kütləvi axınına səbəb olmuşdur.

Dünən səhər əvvəlcə Abşeron rayonunun Masazır gölü ətrafında tədbir keçirildi. Su səyahəti mərasimi karate-do üzrə səkkizqat dünya çempionu, əməkdar məşqçi Sədi Namazov, boks üzrə dünya çempionu Fərhad Acalov, basketbol, şahmat və rəsm həvəskarı, Qaradağ rayonundakı 166 saylı məktəbin 3-cü sinif şagirdi, dərs əlaçısı Mirəkrəm Bağırlının göldən səhəngə su doldurması ilə başladı. Sonra su səhəngi Lökbatan qəsəbəsində keçirilən su festivalına təqdim edildi. Xatırladaq ki, Bakıdan səyahətə başlayan səhəng mayın 12-də Bakı Olimpiya Stadionunda keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimin tərkib hissəsi olacaq.

Günorta saatlarında "Domestic Grassroots" proqramı çərçivəsində "Neftçi" idman klubunun Qaradağ İdman-Təlim Bazasında daha bir möhtəşəm layihə - "Sport joys-Regional" idman tədbiri həyata keçirildi. Tədbirdə İslamiadanın təbliği, yeniyetmə və gənclərin idmana cəlb edilməsi məqsədilə müxtəlif müsabiqələr təşkil olundu. Qonaqlar arasında IV İslam Həmrəyliyi Oyunlarının ulduz səfirləri Rafael İsgəndərov, Coşqun Rəhimov, Müşviq Abbasov və Hacı Nuran iştirak etdilər. Onlar tədbir iştirakçılarına və tamaşaçılara Azərbaycanın dünyada artan nüfuzunun göstəricisi olan bu Oyunların dostluq, həmrəylik və birlik bayramına çevriləcəyini bildirdilər.




Mərasim axşam saatlarında Qaradağ rayonundakı Heydər Əliyev parkında su festivalı ilə davam etdi. Region sakinlərinin böyük həvəslə izlədiyi tədbirdə "Mirvari" rəqs qrupu, Aşıq Əli və Aşıq Samirə, Azərbaycan Ritmləri, Mahnı və Rəqs Ansamblı öz məharətlərini nümayiş etdirdilər. Minlərlə rayon sakini möhtəşəm lazer və su şousu, habelə atəşfəşanlıqdan zövq aldılar. Ümumilikdə möhtəşəm tədbir iştirakçılara əyləncəli və rəngarəng anlar yaşatdı. Rayon Ağsaqqallar Şurasının sədri Təhməz Təhməzov, Qarabağ Müharibəsi Veteranları Təşkilatının sədri Paşa Məmmədov, əməkdar idman və bədən tərbiyəsi işçiləri Rəcəb Vəliyev, Rafael Abbasov, "Tərəqqi" medallı müəllimlər Validə Əkbərova və Tamilla Qurbanova ölkəmizdə keçiriləcək möhtəşəm beynəlxalq yarışın - IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizin nüfuzunu bütün dünyada daha da möhkəmləndirəcəyini, İslam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr verəcəyini bildirdilər.

Tədbirdə Prezident İlham Əliyevin su mərasiminin başlanğıcında Xəzər dənizinin suyu ilə dolu olan səhəngi Qaradağ sakinlərinə təhvil verməsi görüntüləri də təqdim olundu.

Möhtəşəm su səyahətinin idman bayramına xüsusi rəng qatdığından bəhs edən dünya çempionu Fərhad Acalov dedi: "Bu tədbir həm idman, həm də birlik, tolerantlıq dəyərlərini özündə daşıyan ictimai tədbirdir. Tədbirdə iştirak etdiyimə görə qürur duyuram".

Xəzərdən başlamış su səyahətinin növbəti dayanacağı Sumqayıt şəhəri olacaq. 37 gün ərzində ölkəmizin 15 bölgəsini əhatə edəcək su səyahəti 3 min kilometr məsafə qət etməklə mayın 12-də Bakıda IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimi ilə başa çatacaq. Ölkəmizin müxtəlif şəhər və rayonlarından olan uşaqlar və idmançılar göl, çay, şəlalə və bulaqlardan topladıqları saf sularla Bakıda 50-dən artıq müsəlman ölkəsinin nümayəndə heyətlərini salamlayacaqlar.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***